# HEYVANDARLIĞIN İNTENSİV İNKİŞAFINDA SÜNİ MAYALANDIRMANIN TƏTBİQİ VƏ ƏHƏMİYYƏTİ

**Mübariz Əliyev, Mahirə Qurbanova, Leyla Ələkbərova**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu, arifleyla@mail.ru*

Əhalinin heyvandarlıq məhsullarına olan tələbatının ödənilməsi üçün bu sahədə istehsalın artırılması, keyfiyyətin və iqtisadi səmərəliliyin yüksəldilməsi əsas məsələrdən biridir. Bu məqsədə nail olmaq üçün kəndli fermer və özəl heyvandarlıq təsərrüfatlarında biotexnoloji üsullardan, xüsusən heyvanların süni mayalandırılmasından istifadə etmək çox vacibdir. Damazlıq işinin təşkilində ən mütərəqqi metodlardan biri olan süni mayalanmanın aparılmasında əsas məqsəd az məhsuldar cinslərin yaxşılaşdırılması, eyni zamanda intensiv yetişdirilmə zamanı məhsuldar heyvan cinslərinin yenidən bərpasıdır. Bu texnologiya heç bir xüsusi qurğu olmadan iri heyvandarlıq fermalarında, kiçik fermer təsərrüfatlarında və fərdi ev təsərrüfatlarında uğurla həyata keçirilir, heyvandarlıq məhsullarının maya dəyərinin aşağı salınmasına imkan verir. Süni mayalanma prosesində təbii cütləşmə yolu ilə yayılan brüssilyoz, vərəm, triximonoz, balalıq yolunun iltihabı və.s. kimi xəstəliklərə yoluxmanın qarşısı alınır. Bundan başqa, süni mayalandırmanın mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasında da böyük rolu vardır. Belə ki, süni mayalandırma yüksək məhsuldar törədicilərin və kəllərin toxumları ilə aparıldığından süni yolla alınan buzovlar valideynlərinin irsi xüsusiyyətlərini özündə saxlayır və yaxşı yemləmə şəraitində daha yüksək məhsul verirlər.

Süni mayalanmanın tətbiqi təsərrüfatın iqtisadi səmərəliliyini artırır. Bu mütərəqqi metod tətbiq edildikdə maldarlıqda minlərlə baş törədici buğa saxlamağa ehtiyac qalmır.

İşğaldan azad olunmuş rayonların yenidən bərpası proqramında iri və xırda heyvandarlıq komplekslərinin tikilməsi nəzərdə tutulmuşdur. Süni mayalanma işinin həmin təsərrüfatlarda tətbiq edilməsi gələcəkdə heyvanların baş sayının artırılması və cins tərkibinin yaxşılaşdırılmasına öz töhfəsini verəcəkdir.